# Durım Gedim Çöle Çöre Dada Ben Dada Ben

— *faramarz-abdollahpur* · 08 Mayıs 2024



Durım gedim çölə çörə dada mən dada mən
Dərd əlindən gəlmişəm fəryada mən dada mən

Düşmişəm qurbətə ürək tutulıp ay aman
Ayrılıq əlindən gəldim dada mən dada mən

Yalquzçılıq ürəğimə ot vırıp ay aman
Alışıram gizlin gizlin ota mən ota mən

Yoxdı çarəm sirrim kimə söyləyim ay amam
Keçdi ömrim düşdim çat ha çata mən dada mən

Baş ağarıp diş tökilip üz batıp ay aman
Ömri verdim əbəs yerə bada mən dada mən

Zindəganlıq tovır tovır tovlayıp atıpdı
Heç bilmirəm düşəciyəm harda mən dada mən

El içindən əcəb uzaq düşmişəm ay aman

Tuş olmişam qurbət eldə yada mən dada mən

Bu eser **EdebiyatEvi.com** üzerinde yayımlanmıştır.

https://edebiyatevi.com/yazi/287473/durim-gedim-cole-core-dada-ben-dada-ben